BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

№2 Humanitar elmlər seriyası 2015

UOT 94/479.24

# BÖYÜK VƏTƏN MÜHARİBƏSİNDƏN SONRAKI İLK İLLƏRDƏ AZƏRBAYCANDA RADİOLAŞDIRMA VƏ RADİO VERİLİŞLƏRİNİN TƏKMİLLƏŞDİRİLMƏSİNƏ PARTİYA VƏ DÖVLƏT RƏHBƏRLİYİ

**İ.B.MƏHƏRRƏMOV**
*Azərbaycan Texniki Universiteti*
*israil@mail.ru*

*Məqalə Böyük Vətən müharibəsindən sonraki ilk illərdə Azərbaycanda radiolaşdırma və radio verilişlərinin təkmilləşdirilməsinə, partiya və dövlət rəhbərliyi məsələlərinə həsr olunmuşdur. Sovet hakimiyyəti illərində radio verilişləri vasitəsilə əmək cəbhəsində olan nailiyyət, yeniliklər geniş təbliğ olunur və xalqda əmək rəşadəti ruhunu yüksəldirdi. Radio verilişlərində "Leyli və Məcnun", "Şah İsmayıl", "Nərgiz", "Koroğlu" və s. bu kimi əsərlər repertuara daxil edilir və təbliğ olunurdu. Proqramda kolxozçular üçün xüsusi verilişlərin təşkil edilməsi, "Kolxozçu saatı" proqramının tətbiq edilməsi də planlaşdırılırdı.*

*Sovet hökuməti və partiya rəhbərləri radiodan əsasən bir təbliğat vasitəsi kimi istifadə edirdilər.*

**Açar sözlər:** Böyük Vətən müharibəsi, müharibədən sonrakı illər, radio, radio verilişləri, radio verilişlərinin yaxşılaşdırılması, ona partiya və dövlət rəhbərliyi

Sovet hakimiyyəti illərində Azərbaycanın dövlət və hökumət rəhbərliyi də radioya və onun təşkil etdiyi verilişlərə mühüm təbliğat və təşviqat vasitəsi kimi üstün qiymət verirdi. Bu məqsədlə hələ müharibənin axırlarına yaxın ÜİK(b)P MK-nın ittifaqdaxili radiolaşdırma ilə bağlı qəbul edilmiş xüsusi qərarı əsas götürülərək respublika daxilində musiqi, ədəbi-dram, uşaq-gənclər verilişləri, ictimai-siyasi verilişlər, texniki şöbə və aşağı verilişlər proqramları yenidən nəzərdən keçirildi və 1945-ci il fevralın 22-də Azərbaycan Xalq Komissarları Soveti (XKS) yanında Azradiokomitə tərəfindən bununla bağlı olaraq xüsusi tədbirlər planı işlənilib hazırlandı. Proqramın tərtibinə Azradiokomitənin sədr müavini A.A.Əfəndiyev rəhbərlik edirdi.

Tədbirlər planı 5 bölmədən ibarət idi. Proqramda radioda səsləndiriləcək əsərlərin, radio tamaşalarının, musiqi əsərlərinin, klassik musiqinin, folklor sənəti nümunələrinin, ədəbi-bədii verilişlərin təsnifatı aparılmışdı. Proqramda Rusiya və digər xalqların, xüsusilə də SSRİ ərazisində yaşayan xalqların haqqında, eləcə də onların ədəbi və musiqi nümunələri ilə bağlı verilişlərin səsləndirilməsinə üstünlük

verilirdi. Radionun əsas verilişlərində özünə möhkəm yer tutan proqramlar sırasında «Zolotoy petuşok», «Snequroçka», «İvan Susanin», «Karmen», «Sevilya bərbəri» və s. əsərlərə üstünlük verilirdi. Bununla belə, Azərbaycan xalq yaradıcılığı və Azərbaycan müəlliflərinin əsərlərinə də yer ayrılmışdı. Bu sırada "Leyli və Məcnun", "Şah İsmayıl", «Nərgiz», «Koroğlu» və s. əsərlər də repertuara daxil edilmişdi. Proqramda kolxozçular üçün xüsusi verilişlərin təşkil edilməsi, «Kolxozçu saatı» proqramının tərtib edilməsi planlaşdırılmışdı [2, v. 38-43].

Efirə çıxarılan verilişlər sırasında siyasi söhbətlərə, «Pravda» qəzetinin baş məqaləsinin oxunmasına, elmi söhbətlərə, mərkəzi qəzetlərin, Bakı qəzetlərinin və rayon qəzetlərinin oxunuşuna ayrıca vaxt ayrılmışdı. «Son xəbərlər» adlı proqrama isə xüsusi diqqət yetirilirdi ki, dinləyiciləri müxtəlif səpgili məlumatlarla maraqlandıra bilsinlər [2, v. 38-43].

Radio verilişlərinin daha da yaxşılaşdırılması məqsədilə respublikanın siyasi rəhbəri M.C.Bağırovun şifahi göstərişinə əsasən 1945-ci il aprelin 9-da Azradiokomitənin rəhbər əməkdaşlarının müşavirəsi keçirilmişdir [2, v. 37-37a].

Müşavirədə qərara alınan tədbirlər proqramı nəticəsində musiqi verilişlərinin keyfiyyəti yüksəldilmiş, bu məqsədlə musiqi əsərlərinin bir qismi tanınmış ifaçıların səsi ilə yenidən lentə yazılmışdır. Moskvadan xüsusi yazılar gətirilmişdi. Bayram günləri üçün ayrıca proqramların tərtib edilməsi qərara alınmışdı. Sənaye müəssisələri, kolxozlar, elmi-mədəni təşkilatlar üçün proqram hazırlamaq üçün 9 nəfərdən ibarət xüsusi işçi qrupu yaradılmışdı [2, v. 37].

Azradiokomitəyə yaxından yardım göstərilməsi məqsədi ilə AK(b)P MK Bürosunun qərarına uyğun olaraq Azərbaycan SSR XKS yanında İncəsənət Y/Ş-nin rəisi Rəhimovun məlumatına əsasən 1945-ci il iyulun 5-i üçün görülən işlərin gedişi haqqında ümumiləşdirmələr aparıldı. Eyni zamanda Azərbaycan SSR XKS yanında İncəsənət işləri İdarəsi öz sərəncamında olan bir çox müəssisələri, o cümlədən, Azərbaycan Dövlət Dram Teatrının, Azərbaycan Dövlət Filarmoniyasının, Azərbaycan Dövlət Opera Teatrının, Musiqili Komediya Teatrının, Gənc Tamaşaçılar Teatrının binalarının əsas salonları səs yazılışları aparılması üçün Azradiokomitənin sərəncamına verilmişdi [4, v. 69].

Hələ 1945-ci il martın 1-dən Bakı şəhər özfəaliyyət qüvvələrinin iştirakı ilə radioda səsləndirilən konsertlərin sayı artırılmışdı. Məsələn, ilin əvvəlindən martın 1-dək Gəncə, Ağdam, Naxçıvan, Beyləqan bədii özfəaliyyət ansambllarının, Tovuz aşıqlarının 32 konserti keçirilmişdi [4, v. 69].

Azradiokomitənin fəaliyyətinə Azərbaycan K(b)P MK-nın birinci katibi M.C.Bağırovun özü şəxsən nəzarət edir və vaxtaşırı Komitənin sədri Ş.Abbasovdan görülən işlər barədə hesabat tələb edirdi. Eyni zamanda M.C.Bağırov tərtib olunmuş planlara şəxsən düzəlişlər edirdi. 1945-ci il aprelin 25-də Şəmsəddin Abbasovun təqdim etdiyi hesabatda göstərilirdi ki, «Sizin Azərbaycan radiokomitəsinin işləri ilə bağlı etdiyiniz iradlara uyğun olaraq Komitə tərəfindən ciddi tədbirlər planı hazırlanılıb, həyata keçirilməkdədir. O cümlədən, ən yaxşı ifaçıların iştirakı ilə 80 dəqiqəlik musiqi əsərləri lentə yazılmışdır. Moskvada Zaqafqaziya incəsənəti dekadasında Ümumittifaq radiokomitəsi tərəfindən lentə alınmış əsərlə-

rin Bakıya gətirilməsi üçün Moskvaya nümayəndə göndərilib [2, v. 55].

Bundan əlavə, ədəbi-dram verilişlərindən, klassik və sovet ədəbiyyatı nümunələri əsasında xüsusi «qızıl fond» yaradılması planlaşdırılmışdı ki, onun materialları əsasında da vaxtaşırı radio dinləyicilərinə xidmət göstərilsin. Radioda «Böyük kəşflər və ixtiralar», «Gözəl insanların həyat və fəaliyyətləri», «Hər şeyi bilmək istəyirəm», «Tarixi hadisələrin təqvimi» və s. bu kimi silsilə verilişlər proqramı hazırlanmış və radio dinləyicilərinə çatdırılmışdı [2, v. 55a].

Görülən tədbirlərlə kifayətlənməyən Azərbaycan K(b)P MK-nın birinci katibi M.C.Bağırovun tələbi ilə 1946-cı il mayın 31-də AK(b)P MK və Azərbaycan SSR Nazirlər Sovetinin «Respublikada radiolaşdırma və radio verilişləri işinin daha da yaxşılaşdırılması haqqında» birgə qərarı qəbul olunmuşdu [3, v. 49-52].

Tədbirlər planına uyğun olaraq Azərbaycanda radio işlərinin inkişafı ilə bağlı əldə edilmiş nailiyyətlər haqqında qısa məlumat verilir və bir sıra rayonlarda – Ağsu, Bərdə, Cəbrayıl, Zərdab, İmişli, Ağdam, Ağcabədi, Ağdaş, Tərtər, Qasım İsmayılov, Füzuli, Qubadlı, Zəngilan və Noraşen rayonlarında işin tam yarıtmaz olduğu xüsusi qeyd olunurdu [3, v. 49].

Partiya və sovet rəhbərliyinin göstərişi ilə 1946-cı ildə radio translyasiya qəbul şəbəkəsinin sayını 7000-ə, radiofikasiya şəbəkəsinin sayını isə 61950-yə çatdırmaq qərara alınır [3, v. 49a].

1946-cı il mayın 31-də Azərbaycan SSR Nazirlər Soveti və AK(b)P MK bürosunun «Respublikada radiolaşdırma və radio verilişləri işlərinin yaxşılaşdırılması haqqında» 444 saylı birgə qərarları qəbul olunur [5, v. 20].

Hökumətin tələbi ilə SSRİ Rabitə Nazirliyi Azərbaycan şöbəsinin müvəkkili Bakıda radiolaşdırma işləri ilə məşğul olacaq şəxslər üçün üç aylıq dinləyicilər kursu təşkil edir və 1946-cı ilin oktyabrında kursun 40 nəfərdən ibarət ilk müdavim buraxılışı olur [3, v. 50].

Radio qovşaqları və radio şəbəkələrinin fasiləsiz elektrik enerjisi ilə təmin olunması məsələsi də günün vacib məsələlərindən idi və müvafiq idarələrə bu barədə xüsusi göstərişlər verilmişdi. Planlaşdırılan bütün işlərə şəxsən Azərbaycan K(b)P MK-nın birinci katibi M.C.Bağırov və Azərbaycan SSR Nazirlər Sovetinin sədri Teymur Quliyev nəzarət edirdilər [3, v. 52].

Azradiokomitəsinin işinin daha da yaxşılaşdırılması məqsədi ilə Azərbaycan SSR Nazirlər Sovetinin sədri T.İ.Quliyevin tapşırığı ilə H.Rəhimov, S.Rəhimov, Rəsul Rza və Ş.Abbasovdan ibarət komissiya yaradılır və ona Komitənin işini yaxından öyrənmək tapşırılır. Komissiya 1946-cı il oktyabrın 15-də görülən işlər barədə öz hesabatını və təkliflərini təqdim edir [5, v. 25-37].

Azərbaycan K(b)P MK-nın birinci katibi M.C.Bağırov Azradiokomitənin işi barədə çox tez-tez arayışlar tələb edir və bütün bunlara şəxsən özü nəzarət edirdi. Arayışların əksəriyyəti Azradiokomitənin sədri Ş.Abbasov tərəfindən hazırlanırdı. Məsələn, Ş.Abbasovun 1946-cı il iyulun 10-da təqdim etdiyi arayışda dövlətin nəzarəti və yardımı ilə görülmüş işlər barədə deyilirdi: «Respublikada radiolaşdırma və radio verilişlərinin işinin yaxşılaşdırılması haqqında» qərarın qəbul edilməsindən sonra Lerik, Əli-Bayramlı, Masallı, Sabirabad rayonlarında yerli verilişlər

redaksiyalarının bülletenləri tərəfimizdən tərtib olunmuşdur… 1946-cı il mayın 31-də Gəncə şəhərində radio dinləyicilərinin 1000 nəfərdən artıq adamı əhatə edən konfransı keçirilmişdir [4, v. 35-36]. Qubada keçirilən konfrans da dinləyicilərlə yaxından və birbaşa ünsiyyətdə olma baxımından xeyli əhəmiyyətli olmuşdur.

Belə konfransların Şamaxı, Naxçıvan, Nuxa, Xankəndi, Göyçay, Zaqatala, Xaçmaz və Ağdamda da keçirilməsi planlaşdırılmışdı.

Arayışla tanış olan M.C.Bağırov 1946-cı il oktyabrın 18-də onun üzərində rusca belə dərkənar yazmışdır: «Respublika radiolaşdırma və radio verilişləri komitəsinin xahişlərinə əməl edilsin» [4, v. 35]. Eyni zamanda noyabrın 1-i üçün yeni arayış tələb etmişdir. Arayış yenə də Ş.Abbasov tərəfindən hazırlanmış və 1946-cı il noyabrın 1-də M.C.Bağırova təqdim edilmişdi. O, arayışla noyabrın 4-də tanış olmuşdur. Bununla kifayətlənməyən partiya rəhbəri Azradiokomitənin işlərini daha yaxından araşdırmaq üçün yeni – operativ komissiya yaradılmasını təklif edir. Artıq 1946-cı il dekabrın 7-də komissiyanın rəyi hazır olur [5, v. 48-54]. Komissiyanın rəyi əvvəlki yoxlamaların nəticələrini təsdiq edir. Ona görə də radiolaşdırma və radio verilişləri sahəsində əlavə tədbirlər görülməsi və yeni avadanlıqla təchizat məsələsi tam kəskinliyi ilə qarşıya qoyulur. Ayrı-ayrı yaradıcı adamlara tövsiyələr verilir.

Ümumittifaq K(b)P MK 1947-ci il yanvarın 25-də Ümumittifaq radio komitəsinin verilişlərini yaxşılaşdırmaq məqsədi ilə xüsusi qərar qəbul edir [8, v. 58].

Azradiokomitəyə, bütövlükdə radiolaşdırma və radio verilişləri işlərinə daha da yaxından köməklik göstərmək məqsədi ilə 1947-ci il fevralın 14-də Azərbaycan K(b)P MK bürosunun iclasında (protokol №557) «Respublika radio verilişlərinin yaxşılaşdırılması tədbirləri haqqında» məsələ müzakirə edilir [8, v. 58-67; 1, v. 63]. Bütün məsələlərdə olduğu kimi, ilk növbədə, Azradiokomitənin ünvanına tənqidi qeydlər söylənilir və mövcud çatışmazlıqların aradan qaldırılması sahəsində tədbirlər planı hazırlanır, qərarlar qəbul edilir, məsələnin tezliklə həlli üçün müvafiq təşkilatlara konkret tapşırıqlar verilir.

Ayrı-ayrı təşkilatların, o cümlədən, AzTAQ-ın direktoru Rza Quliyevə, "Kommunist" qəzetinin redaktoru İmanquliyevə, «Bakinski raboçi» qəzetinin redaktoru Melnikova və s. mətbuat orqanlarının rəhbərlərinə Azradiokomitəyə mütəmadi olaraq təzə informasiya verməlləri ciddi məsələ kimi tapşırılır [8, v. 67].

1946-cı il və 1947-ci ilin birinci yarısı üçün respublikada mövcud olan mədəniyyət evləri, klublar və qiraət komalarındakı radio şəbəkələr yoxlamadan keçirilib və işlək hala salınıb. Eyni zamanda göstərilən müddət ərzində «Rodina» və «Rekord» tipli 1150 radio qəbuledici və 745 ədəd reproduktor istifadəçilərin sərəncamına verilmişdir [7, v. 62].

Astara rayonunda 1947-ci ildə 800 radionöqtə dinləyicilərin istifadəsinə verilmişdi. Növbəti ildə də 1400 belə nöqtənin işə salınacağı planlaşdırılmışdı [8, v. 58-67, 106; 1, v. 63].

Ümumittifaq orqanlarının, o cümlədən, radio komitəsinin Azərbaycanın müvafiq orqanlarına böyükçəlik etmək, göstərişlər vermək və hər dəfə də özünü düz, qarşı tərəfi əyri qələmə verməyə öyrəşmiş nümayəndələri Azərbaycan rəhbərliyi-

nin və yaradıcı xadimlərinin adekvat cavabına rast gəlmişdilər. Moskva radiosu ilə Azərbaycan haqqında təhrif olunmuş veriliş böyük etiraza səbəb olmuş, respublikanın bir sıra tanınmış elm, mədəniyyət və dövlət xadimlərinin tənqid atəşinə tutulmuşlar [6, v. 42-47].

İş o yerə çatmışdı ki, Azərbaycan K(b)P MK-nın birinci katibi M.C.Bağırov da Moskva nümayəndələrinin Azradiokomitənin işlərinə kobud şəkildə müdaxilə etmələrini Ümumittifaq radiolaşdırma və Rusiya Federasiyası komitəsinin sədri A.A.Puzinə göndərdiyi məktubda xüsusi qeyd etmişdir [8, v. 32].

Beləliklə, İkinci dünya müharibəsindən sonra Azərbaycan radiosunun işinin təşkilində Respublika rəhbərliyinin və dövlət orqanlarının bilavasitə rolu olmuşdur.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikasının Prezidentinin İşlər İdarəsinin Siyasi Sənədlər Arxivi (ARPİİSSA), f. 1, siy. 206, iş 63.
2. ARPİİSSA, f. 1, siy. 238, iş 351.
3. ARPİİSSA, f. 1, siy. 238, iş 392.
4. ARPİİSSA, f. 1, siy. 238, iş 448.
5. ARPİİSSA, f. 1, siy. 238, iş 449.
6. ARPİİSSA, f. 1, siy. 238, iş 566.
7. ARPİİSSA, f. 1, siy. 238, iş 569.
8. ARPİİSSA, f. 1, siy. 238, iş 678.


## РУКОВОДСТВО ПАРТИИ И ГОСУДАРСТВА ПО УСОВЕРШЕНСТВОВАНИЮ РАДИОУСТАНОВОК И РАДИОПРОГРАММ В ПЕРВЫЕ ГОДЫ ПОСЛЕ ВЕЛИКОЙ ОТЕЧЕСТВЕННОЙ ВОЙНЫ


**И.Б.МАГЕРРАМОВ**


### РЕЗЮМЕ


Статья посвящена вопросам радиофикации и улучшения радиопрограмм в Азербайджане в послевоенные годы (за годы прошедшие после Великой Отечественной войны). В годы советской власти, при помощи радиопрограмм широко пропагандировались достижения на трудовом фронте, и это поднимало трудовой дух народа. В репертуар программ, передающихся по радио, включались и пропагандировались такие произведения, как «Лейли и Меджнун», «Шах Исмаил», «Наргиз», «Кероглу и др. В программах планировались организация специальных передач для колхозников, создание программы «Час колхозника».

Советское правительство и партийное руководство, в основном, использовало радио как инструмент пропаганды.



**Ключевые слова:** Великая Отечественная война, послевоенные годы, радио, радиопередачи, улучшение радиопрограмм, партийное и государственное руководство.

# THE ROLE OF THE PARTY AND STATE ADMINISTRATION IN THE QUALIFICATION OF RADIO AND RADIO PROGRAMS IN THE EARLY YEARS AFTER THE GREAT PATRIOTIC WAR

**I.B.MAHARRAMOV**

**SUMMARY**

The paper is dedicated to the perfection of radiofication and radio programs. During the Soviet power, by means of radio the achievements and progress in the front which inspired the people's labour spirit were widely propagated. Such literary works as "Leyli Majnun", "Shah Ismayil", "Nargiz", "Koroghlu" etc. were broadcasted and propagated.

The Soviet government and the party leaders used radio as a means of propagation.

**Key words:** The Great Patriotic War, post-war years, radio programs, perfection of radio programs, the party and state leaders.